

# Ömür yalnız yaşanmaq üçün deyil...

## Müəllim-alimin xatirələri






Pedaqogika üzrə elmlər doktoru, Əməkdar müəllim, əmək veteranı, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" laureatlı jurnalist-publisist, Prezident təqaüdçüsü Yusif Qazıyevin "Yaşamaq uğrunda mübarizə" kitabı işıq üzü görüb.

Xatirələrini bölüşən müəllif kitabında öz həyat yolundan bəhs edib. Adından da göründüyü kimi, kitabda 1934-cü ildə Qərbi Azərbaycanda dünyaya göz açan müəllif həyatda qalmaq uğrunda apardığı mübarizələrdən söz açır.

Kitab uşaqlıq, gənclik və ahıllıq dövrlərinə aid verilən şəkillərlə oxucunu Yusif Qazıyevin bütün həyatını göz önündə canlandırmağa kömək edir.

Kitabı oxuyarkən Yusif Qazıyevin təhsil sahəsində gördüyü işlərlə bağlı da məlumat əldə etmək mümkündür. Məsələn, o, müəllim kimi fəaliyyət göstərdiyi 2 məktəbdə 3 fərqli fənn üzrə dərs keçib. Ayrı-ayrı vaxtlarda həm ibtidai sinif, həm alman dili, həm də çağırışaqədərki hazırlıq fənn müəllimi işləyib. Yusif Qazıyev müəllimlik fəaliyyəti dövründə yalnız pedaqoji fəaliyyətlə kifayətlənməyərək elmi istiqamətə də zaman ayırıb və bunun nəticəsi olaraq ümumi pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. Müəllifin 150-ə qədər məqalə və əsəri çap edilib. Y.Qazıyev müəllim-alim adını 76 il (68 il müəllim, 8 il pedaqoji təhsil) şərəflə daşıyıb.

Kitabda müəllif ailə dəyərlərinə də toxunub, onların qorunmasının vacibliyinə xüsusi diqqət çəkib. O, öz ailəsinin timsalında ailə münasibətlərindən, onun önəmindən söz açıb, xatirələrindən bəhs edib.

"Yaşamaq uğrunda mübarizə" oxucuya sadə, amma dərin bir mesaj verir: ömür yalnız yaşanmaq üçün deyil, iz qoymaq üçündür.

Qeyd edək ki, 862 səhifəlik kitabın redaktoru pedaqogika üzrə elmlər doktoru, Əməkdar elm xadimi, professor Fərrux Rüstəmov, rəyçisi filologiya üzrə elmlər doktoru, professor İbrahim Bayramovdur.

**Nərmin MƏMMƏDZADƏ**

Azərbaycan müəllimi.- 2025.- 11 oktyabr, №38.- S.7.